# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

09 (61 ) 22 iyun 2016-cı il

İctimai-siyasi qəzet


## İlham Əliyev Bakıda keçirilən Formula-1 Avropa Qran-prisinin açılış mərasiminə və final yarışına baxıb



**Azərbaycanın paytaxtı Bakı növbəti dəfə dünya əhəmiyyətli mötəbər idman yarışına ev sahibliyi edib. Bakıda dünyanın ən nüfuzlu idman yarışlarından biri - Formula-1 Avropa Qran-prisi keçirilib. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Formula-1 Avropa Qran-prisinin açılış mərasiminə və final yarışına baxıblar.**

Formula-1 Avropa Qran-prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılış mərasimi maraqlı anlarla yadda qaldı. Bu anlar təsdiqlədi ki, dünyada yarım milyard tamaşaçı auditoriyası olan Formula-1 yarışının Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirdi. Karnaval üslubunda hazırlanan açılış mərasimində Azərbaycan mədəniyyətinin incə koloriti, milli rəqslərimiz təqdim olundu. Milli mədəniyyətimizi Formula-1 dəyərləri ilə birləşdirən açılış mərasimində alov, su, külək, irəli və birlikdə rəmz və modellərinin vəhdəti könüllülər, azərbaycanlı sənətçilər, milli qruplar və beynəlxalq ifaçılardan ibarət 626 nəfərlik heyət tərəfindən təqdim edildi.

Açılış mərasimi başa çatdıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yarışın idarəetmə mərkəzində yaradılan şəraitlə tanış oldular. “Formula One Management”in prezidenti Berni Ekklstoun məlumat verdi ki, böyük bir ərazini əhatə edən kompleksdə yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, Formula-1 rəhbərliyinin ofisləri, eləcə də 22 iştirakçının hər biri üçün 2 ədəd olmaqla 44 dayanacaq tikilib. İkinci mərtəbə Paddok klubun üzvləri üçün nəzərdə tutulub. Paddok klubun üzvləri burada pit-stop əməliyyatlarını da rahatlıqla izləyirlər. Yarışın startı və finişi məhz bu ərazidə yerləşir. Dövlət himnimioz səsləndi, sonra Formula-1 Avropa Qran-prisinin final mərhələsinə start verildi. Bir gün əvvəl keçirilən sıralama yürüşünün nəticəsinə əsasən, start xəttinə ən yaxın məsafədə “Mercedes”in pilotu Niko Rosberq dayandı. Onun ardınca isə “Red Bull Racing”in sürücüsü Daniel Rikkardo və “Ferrari”nin pilotu Sebastian Fettel yer aldılar. Beləliklə, 22 pilot qalib adı uğrunda mübarizəyə qatıldı. Avropa Qran-prisinin iyunun 19-da keçiriləcək final mərhələsində pilotların düzülüşü müəyyən olundu.

Əldə etdiyi nəticəyə görə, Niko Rosberqə kuboku Prezident İlham Əliyev təqdim etdi. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva isə mühəndislər kubokunu “Mercedes” komandasının nümayəndəsinə təqdim etdi. Kuboklar ikinci yerin sahibi Sebastian Fettelə gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan Serxio Peresə isə Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov tərəfindən təqdim olundu.

Ümumiyyətlə, Formula-1 Avropa Qranpri yarışlarının Bakı mərhələsi dünyada böyük maraq doğurdu. Almaniyalı Herman Tilke tərəfindən layihələndirilən şəhər treki nadirliyi ilə seçildi. Ona görə ki, Monte-Karlo, Melburn, Monako və Sinqapur kimi, Bakı Qran-prisi də şəhər trasına ev sahibliyi edirdi. Belə ki, Bakıda keçirilən yarış zamanı avtomobillər dənizkənarı bulvar boyunca hərəkət edir, şəhərin ən qədim hissəsi olan və UNESCO-nun dünya irsi siyahısına daxil edilən İçərişəhər Tarix-Memarlıq Qoruğunun ətrafında dövr edirdilər. Beləliklə, yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar şəhərin tam simasını görmək imkanı qazanmışdılar. Bununla da, Formula-1 üzrə dünya çempionatının 8-ci mərhələsi olan Bakı Avropa Qran-prisi başa çatdı.



## İlham Əliyev Beynəlxalq Avtomobil Federasiyasının prezidentini qəbul edib



**Prezident İlham Əliyev Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Jan Todu qəbul edib.**

Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Jan Tod Bakıda Formula-1 yarışının yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. O, tədbirin önəmini yüksək qiymətləndirərək bunun təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə, o cümlədən regionda mühüm əhəmiyyət daşıdığını dedi.

Formula-1 yarışının əhəmiyyətini qeyd edən dövlətimizin başçısı tədbirin beynəlxalq əməkdaşlığa töhfəsini verdiyini bildirdi. Prezident İlham Əliyev yarışın Azərbaycana gələn turistlərin ölkəmizlə yaxından tanış olmaları üçün yaxşı imkan yaratdığını vurğuladı.

Görüşdə Azərbaycan ilə Beynəlxalq Avtomobil Federasiyası arasında uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olundu.

## İlham Əliyev Nobel sülh mükafatı laureatı Məhəmməd Yunusu qəbul edib



**Prezident İlham Əliyev Nobel sülh mükafatı laureatı Məhəmməd Yunusu qəbul edib.**

Məhəmməd Yunus Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda böyük inkişaf proseslərinin getdiyini vurğuladı, ölkəmizdə müsbət dəyişikliklərin onda dərin təəssürat yaratdığını dedi. Məhəmməd Yunus Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın gördüyü işləri də yüksək dəyərləndirdi.

Ölkəmizin müstəqillik dövründə əldə etdiyi nailiyyətlər və bu müddət ərzində görülən işlərdən danışan dövlətimizin başçısı 25 illik dövrün Azərbaycan üçün iqtisadi transformasiya dövrü olduğunu qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanda bütün sahələrdə, xüsusilə iqtisadi sahədə geniş miqyaslı islahatların həyata keçirildiyini vurğuladı. Son dövrlər neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar yaranmış vəziyyətə toxunan dövlətimizin başçısı iqtisadiyyatın şaxələndirilməsi və neftdən asılılığın azaldılması istiqamətində görülən işlərin müsbət nəticələr verdiyini dedi.

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRBAYCAN VETERANI

# 15 iyun - Milli Qurtuluş Günü Respublika Veteranlar Təşkilatında qeyd edildi

Respublika Veteranlar Təşkilatında 15 iyun-Milli Qurtuluş Günü ilə bağlı tədbir keçirilmişdir. Tədbirdə veteranlar, təşkilatın üzvləri və əməkdaşları iştirak etdilər. Ulu öndər Heydər Əliyevin xalqımızın həyatındakı misilsiz xidmətlərindən söz açıldı.

Tədbiri Respublika Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-mayor Dadaş Rzayev açdı. Xalqımız üçün əlamətdar olan Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən danışdı. “Dövrün canlı şahidləri-veteranlarımız tariximizin şanlı səhifəsi 15 iyun 1993-cu ili daim sevinc və fərəhlə xatırlayırlar.

Azərbaycanın taleyinin həll olunduğu ən ağır və faciəli günlərdə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtması ölkəmizin tarixində dönüş nöqtəsi oldu. Azərbaycanın başı üzərini almış qara buludlar məhz həmin gündən dağılmağa başladı, Ulu Öndərin gərgin fəaliyyəti nəticəsində ölkəmiz hərtərəfli inkişaf və tərəqqi yoluna qədəm qoydu. Ümummilli lider Azərbaycanı dünyaya tanıtdı, onu beynəlxalq aləmdə nüfuz sahibi etdi. Bütün bunlara görə qədirbilən Azərbaycan xalqı öz böyük oğlunu sevir və onun xatirəsini əziz tutur. Nə qədər ki, müstəqil Azərbaycan var, Heydər Əliyev də olacaqdır”.

Daha sonra Veteranlar Ulu öndər Heydər Əliyevin fəaliyyətindən, onunla bağlı xatirələrindən danışdılar.



# Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun xatirəsinə həsr edilən ənənəvi cüdo turnirinin təntənəli açılışı baş tutdu

**İki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun xatirəsinə həsr olunmuş cüdo üzrə ənənəvi XXXVIII beynəlxalq turnirin iyunun 4-də Bakı İdman Sarayında təntənəli açılış mərasimi keçirilib.**

***Tədbirdə Gənclər və idman naziri Azad Rəhimov, Respublika Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-mayor Dadaş Rzayev, İki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun nəvəsi polis general-mayoru Həzi Aslanov iştirak etmişdirlər.***

Yarışın əhəmiyyətini yüksək qiymətləndirən Gənclər və İdman naziri Azad Rəhimov Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını diqqətə çatdırıb. Nazir bildirib ki, ölkəmizdə idmanın inkişafına dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir. İdmançılarımız beynəlxalq arenada ölkəmizi uğurla təmsil edirlər. “Bu gün Azərbaycan mötəbər beynəlxalq yarışlara yüksək səviyyədə ev sahibliyi edir. Buna “Bakı-2015” birinci Avropa Oyunlarını, Avropa və dünya çempionatlarını misal göstərmək olar.

Artıq beynəlxalq qurumlar da tərəddüd etmədən irimiqyaslı yarışların keçirilməsini ölkəmizə həvalə edirlər. Qarşıda bizi “Formula-1” Avropa Qran-prisi, Ümumdünya Şahmat Olimpiadası, IV İslam Həmrəylik Oyunları və digər mötəbər turnirlər gözləyir”, - deyə nazir əlavə edib.





General-mayor Həzi Aslanovun xatirə turnirinin ölkə idmanı üçün əlamətdar hadisə olduğunu vurğulayan nazir bu yarışdan istedadlı gənc idmançıların çıxacağına əminliyini bildirib.

Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev ölkəmizdə idmanın, o cümlədən cüdonun inkişafına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə təşəkkürünü bildirib. Son illər ölkəmizdə müntəzəm qaydada beynəlxalq turnirlərin keçirildiyini diqqətə çatdıran R.Abdullayev bunu Azərbaycanın dünyanın idman mərkəzi kimi tanınmasının bariz nümunəsi olduğunu söyləyib.

Məşhur sərkərdənin nəvəsi, polis general-mayoru Həzi Aslanov idmançılara uğurlar arzulayıb. O, 1975-ci ildə dahi siyasətçi Heydər Əliyev tərəfindən əsası qoyulan bu turnirin cüdonun inkişafı istiqamətində mühüm mərhələ olduğunu qeyd edib. H.Aslanov cüdoçularımızın beynəlxalq yarışlarda qazandıqları qələbələrin Azərbaycanda idmanın bu növünün böyük gələcəyindən xəbər verdiyini diqqətə çatdırıb.



Sonra Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının təsis etdiyi “General Həzi Aslanov xatirə yubileyi” medalı Azad Rəhimova və Rövnəq Abdullayevə təqdim olunub. Sərkərdənin nəvəsi Həzi Aslanov da təltif olunub.

Medalı Təşkilatın sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev təqdim etdi.

Tədbir konsert proqramı ilə davam edib.

Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin və Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə keçirilən yarışda Azərbaycan, Rusiya, İran, Gürcüstan, Türkmənistan, Qırğızıstan, İsrail, Sloveniya, Xorvatiya və Macarıstandan 300-dən çox idmançı birincilik uğrunda mübarizə aparır.

1999-2001-ci il təvəllüdlü idmançılar arasında təşkil olunan yarışda 18 çəki dərəcəsi üzrə qaliblər müəyyənləşəcək. Tədbirin keçirilməsində məqsəd Həzi Aslanovun xatirəsinin əbədiləşdirilməsi, cüdonun geniş təbliğ olunması, iştirakçıların idman ustalığının artırılması, xarici ölkələrin idmançıları ilə dostluq və idman əlaqələrinin möhkəmləndirilməsi və ən güclü atletlərin üzə çıxarılmasıdır.



# Qurtuluş məfkurəsi Azərbaycanın uğurlu inkişafının ideya əsasıdır

**Nizami Rayon İcra Hakimiyyəti Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatı ilə birgə 15 İyun - Milli Qurtuluş Günü münasibətilə “Qurtuluş məfkurəsi Azərbaycanın uğurlu inkişafının ideya əsasıdır” adlı tədbir keçirib.**



YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva tədbirdə çıxış edərək Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-dən 23 il keçdiyini xatırladıb, bu illərin ölkəmizin və xalqımızın həyatında böyük dəyişikliklərlə yadda qaldığını vurğulayıb. Qurtuluş məfkurəsinin Azərbaycanın uğurlu inkişafının ideya əsası olduğunu deyən S.Vəliyeva bildirib ki, ulu öndər Heydər Əliyev tarix baxımından çox qısa müddətdə milli dövlətçiliyin sarsılmaz əsaslarını yaratmağa, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz xarakter almasına nail olub.



YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə dahi rəhbər Heydər Əliyevin xilaskarlıq missiyasından danışıb. O, Milli Qurtuluş Gününü Azərbaycanın müstəqillik tarixinin ən şərəfli səhifələrindən biri kimi dəyərləndirərək qeyd edib ki, bu günün mənası təkcə ölkənin xaos və anarxiyadan xilas edilməsi, xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq, müstəqil dövlətimizi məhv etmək planlarının puça çıxarılması ilə məhdudlaşmır. Bu tarixi gün, eyni zamanda, Azərbaycanın dünya birliyinə qovuşması, dünya dövlətləri tərəfindən tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir.

YAP Siyasi Şurasının üzvü, partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, ulu öndər Heydər Əliyev qısa müddətdə milli dövlətçiliyin sarsılmaz əsaslarını yaradıb və Azərbaycanın müstəqilliyinin əbədi, dönməz xarakter almasına nail olub. O vurğulayıb ki, ölkəmizdə 1993-cü ildən etibarən həyata keçirilən siyasi xəttin prioritetlərini təşkil edən dünyəvi, hüquqi dövlət quruculuğu yönündə atılan addımlar demokratiyanın, insan hüquq və azadlıqlarının təməl prinsiplərinin bərqərar olunmasına zəmin yaradıb.



Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova isə qeyd edib ki, ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi xalqın nicatına yol açıb, Azərbaycan parçalanmaq və vətəndaş müharibəsi təhlükəsindən qurtularaq güclü bir dövlətə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasının (DİA) dosenti, Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov, Nizami Rayon Veteranlar Təşkilatının sədri Yəhya Ağayev və digər çıxışçılar da Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, ulu öndər Heydər Əliyevin Vətəni və xalqı qarşısında əvəzolunmaz xidmətlərindən danışıb. Prezident İlham Əliyevin Ümummilli Liderin siyasi xəttini layiqincə davam etdirdiyi diqqətə çatdırılıb.



Tədbirin sonunda partiya sıralarına yeni daxil olmuş üzvlərə vəsiqələr, YAP Nizami rayon təşkilatının nəzdində fəaliyyət göstərən “Heydər Əliyev İrsini Öyrənirik” məktəbinin məzunlarına sertifikatlar və fəxri fərman təqdim edilib. Eyni zamanda, YAP Siyasi Şurasının üzvü, partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov partiyanın yaradıcısı, müasir Azərbaycanın banisi və qurucusu ulu öndər Heydər Əliyevin siyasi irsinin təbliğ edilməsində, gənclərin Heydər Əliyev ideyaları ruhunda maarifləndirilməsində və onlarda fəal vətəndaşlıq mövqeyinin formalaşdırılmasında xüsusi xidmətlərinə görə sertifikatla təltif olunub.

Həmçinin tədbirdə ictimai-siyasi aktivliyinə, veteranlarla aparılan işə, gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi prosesinə verdiyi töhfələrinə görə YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyevaya və Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini Gülnaz İsrafilovaya Azərbaycan Respublikası Veteranlar Təşkilatının “Veteran həmrəyliyi” medalı, eləcə də bir qrup gəncə döş nişanları və vəsiqələri təqdim edilib.

Tədbirin sonunda Nizami rayonu Uşaq və Gənclər Yaradıcılıq Mərkəzinin yetirmələri ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş şeirlər səsləndiriblər.

AZƏRBAYCAN VETERANI

# 15 iyun - Milli Qurtuluş Günü

**Vətənə məhəbbət, xalqa məhəbbət mənim beynimdədir, qanımdadır, bütün varlığımdadır.**
**Heç nə, heç kim, heç bir qüvvə bu məhəbbəti məndən ala bilməz.**

**Heydər Əliyev**

15 iyun xalqımızın Milli Qurtuluş günüdür! Bu şanlı tarix səhifəsini Azərbaycanın tarixinə yazan Heydər Əliyevdir.

Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan dirçəliş, müstəqilliyin qorunması, onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir. Bildiyimiz kimi, Azərbaycanımız bir əsrdə iki dəfə müstəqillik əldə etmişdir: 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamış, ikinci tarixi imkan bir də 70 il sonra yaranmışdı.

1991-ci ilin oktyabr ayında Azərbaycan yenidən öz müstəqilliyini əldə etdikdən sonra ölkədə daxili vəziyyətdə o cümlədən də hakimiyyətdə böhranı yarandı. Ölkədə bütün sahələrdə xaos vardı. Orduda da vəziyyət çətin idi, mənfur qonşumuz bundan fürsət olaraq istifadə edib təcavüzü gündən-günə güclənirdi. İşğalçılıq niyyəti güdən bu təcavüz respublikada vəziyyəti gərginləşdirirdi. Azərbaycanda hakimiyyətdə də boşluq yaranmışdı. Respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər arasında mübarizə gedirdi.

Xalq vəziyyətin gərgin olduğunu görərək, Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin sədri (1969-1982), daha sonra Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olmuş, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışan Heydər Əliyev xalqın təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəldi. Heydər Əliyev çox az zamanda Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi.




Bəli, Azərbaycan xalqı tarixi qərar qəbul etdi - öz taleyini Heydər Əliyevə etibar etdi. Xalq inanırdı ki, onu bu fəlakətdən yalnız Heydər Əliyev dühası qurtara bilər. Özünü itirmiş , ölkəni siyasi və hərbi böhran qarşısında qoymuş iqtidar xalqın tələbi ilə razılaşmağa məcbur olaraq Heydər Əliyevi təkidlə Bakıya dəvət etmişdi. Əvvəllər bu dəvətlə razılaşmayan Heydər Əliyev ölkənin belə ağır, mürəkkəb bir vaxtında, ondan başqa heç kəsin bu böhranı aradan qaldıra bilməyəcəyini tam məsuliyyəti ilə dərk edərək, Bakıya - böyük siyasətə qayıtmağa razılıq verdi. Azərbaycan Respublikası Milli Məclisinin 1993 -cü il iyun ayının 15-də çağırılmış fövqəladə iclası Heydər Əlirza oğlu Əliyevi respublika Ali Sovetinin Sədri seçdi. Xalqın çağırışına səs verən Heydər Əliyev belə bir gündə bütün ağırlıq və məsuliyyəti öz üzərinə götürərək hakimiyyətə qayıtdı.




Güclü xarakterə sahib mahir siyasətçi olan Heydər Əliyev, güclü siyasi bacarığından, özünün beynəlxalq nüfuzundan istifadə edərək, Naxçıvan ərazisində ermənilərlə danışıqlar apardı, atəşkəsə nail oldu, xalqın ürəyində bir ümid qığılcımı alovlandırdı. Azərbaycanın üçrəngli bayrağını ilk dəfə Naxçıvanın Ali Məclisinə gətirərək dalğalandıran da Məhz Heydər Əliyev oldu. Beləliklə, 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Azərbaycan Respublikasının tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi. 1998-ci ildən 15 iyun - Milli Qurtuluş günü dövlət bayramı statusu alaraq hər il rəsmi bayram kimi qeyd edilir:

Gəlişinlə qurtulubdur bu vətən,
Sən oldun bu xalqa ümid və güvən.
Sən oldun dar gündə köməyə yetən,
Ulu bir sərkərdə, ulu bir öndər!
Ucaltdı hər yerdə bayrağımızı,
Yazdı tarixlərə ad-sanımızı.
Tanıtdı dünyada varlığımızı,
Ulu bir sərkərdə, ulu bir öndər!

Hər bir kəs ilk növbədə öz xalqı, Vətəni ilə tanınır. Elə nadir insanlar da var ki, onlar mənsub olduğu xalqı, vətəni tanıdır, şöhrətləndirirlər. Belə insanlar seçilmiş şəxsiyyətlərdir və xüsusi missiyası olan liderlərdir. Ümummilli liderimiz Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir.

Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan milli dövlətçiliyini bütün təhlükələrdən xilas edib qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət kimi Heydər Əliyevin həyat və fəaliyyəti müasir tariximizin ən mühüm və şərəfli mərhələsini təşkil edir. Heydər Əliyev rəhbərlik etdiyi dövr ərzində daim tərəqqisi, inkişafı üçün çalışdığı Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

Azərbaycanın inkişafında, müstəqilliyinin möhkəmlənməsində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan ulu öndərin həmişə həyat prinsipinə çevirdiyi sözləri xatırlayıram: "Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır...Xalqımın dirçəlişi ilə əldə olunan Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır!" Azərbaycanımız bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilmişdir. Əgər biz bir zamanlar cəsarətsizcə deyirdiksə, Yox millətimin imzası imzalar içində.

Bu gün əminliklə deyirik: Var millətimin imzası imzalar içində!

Məhz buna görə də tariximizə Milli Qurtuluş günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü müstəqilliyi və sabitliyi qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əziz bir gündür.

Azərbaycanımızın zəngin mədəniyyəti, böyük tarixi keçmişi vardır. Biz gənc nəsil Vətənimizlə, ölkəmizlə qürur duyuruq və həmişə, hər yerdə ölkəmizi layiqincə təmsil etməyə hazırıq. Əgər bu gün azad, firavan bir ölkədə yaşayırıqsa, bunun qədrini bilməliyik. Suverenlik bir xalq üçün ən vacib və ümdə bir məsələdir. Azərbaycanın dövlət müstəqilliyinin əldə olunması mühüm tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Dövlət müstəqilliyi dönməzdir, əbədidir, sarsılmazdır. Bu gün hər bir azərbaycanlının üzərinə düşən vəzifə dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır.

Ürəyimdə coşur doğma nəğmələr,
Vətən sevgisiylə dəliqanlıyam,
Könlümdə əbədi kəlmələr...
Mən fəxr edirəm ki, Azərbaycanlıyam!!!

***Səidə Abdullayeva***

# Həyatını elmə həsr edən İsmayıl İbrahimov

Həyatını elmə, təhsilə, maarifçiliyə həsr edən, innovativ ideyaları ilə fərqlənən bu alimlərin fitri istedadı, tükənməz enerjisi və gərgin axtarışları gələcək nəsillər üçün bir məktəbdir. Ölkəmizdə informatikanın təşəkkülü tarixində adı böyük hərflərlə yazılan belə şəxsiyyətlərdən, alimlərdən biri də Azərbaycanın ən qocaman və ilk informatik alimi, Əməkdar elm xadimi, SSRİ Dövlət mükafatı laureatı, akademik İsmayıl İbrahimovdur. İsmayıl Əli oğlu İbrahimov 1915-ci il dekabrın 31-də Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olub. Onun 2 yaşı olanda atası Əli kişi millətlərarası münaqişələrin qurbanı olur, ailənin bütün yükü anasının üzərinə düşür. Bu itki onun uşaqlıq və yeniyetməlik dövründə dərin izlər qoyur. Dördüncü sinfi bitirdikdən sonra İ.İbrahimov Bakıya gəlir və



bir müddət böyük qardaşının himayəsində yaşayır. Həyatın bütün çətinliklərinə baxmayaraq, İsmayıl İbrahimov təhsil almaq arzusunu reallaşdıra bilir. Qocaman alimin dəqiq elmlərə olan marağı hələ yeniyetməlik və gənclik illərində yaranıb. Ümumtəhsil məktəbində altı il oxuduqdan sonra N.Nərimanov adına Sənaye Texnikumunun "Mexanika" fakültəsinə daxil olur, eyni zamanda ictimai işlərdə fəal iştirak edir - texnikumun Həmkarlar İttifaqı Komitəsinin sədr müavini seçilir. İ.İbrahimovun əməksevərliyi diqqətdən yayınmır və o, tələbə ikən laborant vəzifəsinə təyin edilir. Burada ilk dəfə nəzarət-ölçü cihazları ilə tanış olur. L.Krasin adına elektrik stansiyasındakı istehsalat təcrübəsi ona nəzəri biliklərini sənaye şəraitində sınaqdan keçirməyə imkan yaradır. 1935-ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna oxumağa göndərilir. Gələcəyin alimi elə ilk günlərdən bu təhsil ocağının fəal tələbələrindən biri kimi tanınır, yüksək intellektual səviyyəsi, elmə hədsiz marağı ilə fərqlənir. Dördüncü kursda ixtisaslaşma zamanı nəzarət-ölçü cihazları ixtisasını seçməsi onun sonrakı fəaliyyət yolunu müəyyən edir. 1941-ci ildə institutu "Nəzarət-ölçü cihazları və avtomatika" ixtisası üzrə bitirən İsmayıl İbrahimov bu sahədə ilk ali təhsilli azərbaycanlı mühəndisdir.

Təhsilini başa vurduqdan sonra o, Azərenerji Mərkəzi İstehsalat-Tədqiqat laboratoriyasında böyük mühəndis vəzifəsində işlə təmin edilir və eyni zamanda Azərbaycan Sənaye İnstitutunda ixtisasartırma kursunda müəllim kimi çalışır. Lakin İkinci Dünya müharibəsinin başlanması ilə onun sovet ordusu sıralarında xidməti başlayır. Nəzarət-ölçü cihazları və avtomatika üzrə mütəxəssis kimi onu S.M.Budyonnı adına Sankt-Peterburq Hərbi Elektrotexniki Rabitə Akademiyasındakı "Hava müdafiəsi, informasiya və rabitə" ixtisası üzrə qısamüddətli kurslara göndərirlər. Kursları bitirərək İ.İbrahimov kiçik leytenant rütbəsi alır və döyüşən ordu sıralarına göndərilir. Gənc İsmayıl cəbhədə özünü həm yüksək ixtisaslı mütəxəssis, həm də bacarıqlı komandir kimi göstərir və il yarımlıq müddət ərzində taqım komandiri vəzifəsindən əlahiddə batalyon komandirliyinə qədər yüksəlir. Müharibənin axırınadək cəbhədə olan İsmayıl İbrahimov 77-ci Azərbaycan alayının tərkibində xidmət edir. Müharibə başa çatdıqdan sonra, 1946-cı ildə zabit kimi Sovet Ordusu sıralarından təxris olunur və doğma təhsil ocağına - Azərbaycan Sənaye İnstitutuna qayıdır.

İsmayıl İbrahimov tələbə ikən qazandığı uğurlar, apardığı araşdırmalardan sonra, sübhəsiz ki, elmdən kənarda qala bilməzdi. Elə həmin ildən institutun "Nəzarət-ölçü cihazları" kafedrasında baş laborant vəzifəsində işləməyə başlayır. Neftçıxarma və neft emalı, neft-kimya və kimya sənayesi, energetikada ölçmə, nəzarət və avtomatlaşdırma onun elmi axtarışlar sahəsi idi. Sonralar həmin kafedra "İstehsal proseslərinin avtomatlaşdırılması" adlandırılır. Burada o, baş laborantdan assistent (1947-1948), bas müəllim (1948-1954), dosent, professor, kafedra müdiri (1954-1988) vəzifələrinədək yüksəlir. İsmayıl müəllimin rəhbərliyi altında kafedranın maddi-texniki bazası möhkəmlənir, onun nəzdində problem laboratoriyası yaradılır, elmi-pedaqoji əlaqələri genişləndirilir.

1946-1947-ci illər ərzində Krasnovodsk neft emalı zavodunun o dövrdəki ən müasir ölçmə cihazları və avtomatlaşdırma vasitələrinin nəhəng arsenalını öyrənə bilməsi alimin bu sahədə respublikada aparıcı mütəxəssis kimi formalaşmasına kömək edir. Məhz bu dövrlərdən də onun fəal elmi-tədqiqat fəaliyyəti başlayır. O, 1952-ci ildə "Elektron potensiometrlərin tədqiqi" mövzusunda dissertasiya işini müdafiə edərək texnika elmləri namizədi elmi dərəcəsini alır. 1964-cü ildə ona rəhbərlik etdiyi "İstehsal proseslərinin avtomatlaşdırılması" kafedrası üzrə professor elmi adı verilir.

İsmayıl İbrahimov Sənaye İnstitutuna qayıtdıqdan sonra müəllimliklə yanaşı, kollektivin ictimai-siyasi həyatında da fəal iştirak edir. Cəbhədə qazandığı idarəetmə təcrübəsi onun əvvəlcə ilk partiya təşkilatı katibinin müavini (1946), institut partiya komitəsi katibinin müavini (1947-1950) və institut partiya komitəsinin katibi (1950-1952, 1954-1959) seçilməsinə gətirib çıxarır. Bu illər ərzində böyük elmi-pedaqoji və ictimai-siyasi iş aparan İ.İbrahimov ali təhsilin təşkilatçısı kimi də formalaşır. 1960-cı ildə o, M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun rektoru təyin olunur.

Nüfuzlu alimin istedadı və təşkilatçılıq qabiliyyəti rektor kimi özünü daha aydın göstərir. O, ali məktəbin bacarıqlı islahatçısı kimi yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasını tədris prosesinin elmi-texniki təminatı ilə sıx əlaqələndirir, Elmlər Akademiyası institutlarının görkəmli alimlərinin və istehsalatda çalışan mütəxəssislərin tədris prosesinə cəlb edilməsinə xüsusi önəm verir. İ.İbrahimovun rektor kimi yorulmaz səyi və məqsədyönlü fəaliyyəti nəticəsində təhsil ocağı keçmiş sovetlər ittifaqının və dünyanın aparıcı neft institutlarından birinə çevrilir. Heç də təsadüfi deyildir ki, həmin dövrdə SSRİ miqyasında ilk dəfə olaraq ali məktəb təcrübəsində neft və neft-kimya təmayüllü ali məktəblərarası Elmi-Metodik Şura yaradılır və İ.İbrahimov 1961-ci ildən 1988-ci ilədək həmin şuraya sədrlik edir.

Akademik həmçinin keçmiş SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi Elmi-Texniki Şurasının neft bölməsinin üzvü, SSRİ Ali məktəb "Elmi xəbərləri"nin və "Neft və Qaz" ümumittifaq jurnalının baş redaktoru olub. İqtisadi riyazi üsulların və EHM-in tətbiqi əsasında xalq təsərrüfatının idarə edilməsi üzrə komissiyanın sədri kimi İ.İbrahimov xalq təsərrüfatının kompüterləşdirilməsinin əsasını qoyub.

1968-ci ildə İsmayıl İbrahimov "Neft emalı və neft-kimya proseslərinin avtomatik nəzarət, tənzimlənmə və idarə olunması" mövzusunda dissertasiya işini müdafiə edərək texnika elmləri doktoru elmi dərəcəsini alır və elə həmin ildə Azərbaycan EA-nın müxbir üzvü seçilir.

İdarəetmə sahəsində böyük təcrübəsi olan İ.İbrahimov 1970-ci ildə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə



irəli çəkilir. Bu vəzifədə o, 1978-ci ilə kimi çalışır və respublikada elektron, radio və cihazqayırma sahələri üzrə istehsalat müəssisələrinin və yeni elmi-tədqiqat institutlarının yaradılmasında fəal iştirak edir, sənayenin neft emalı, kimya sahələrinin inkişafında, Azərbaycan energetika kompleksinin, maşınqayırmanın qabaqcıl dünya təcrübəsinə uyğun müasirləşməsində və səmərəliyinin artırılmasında öz bilik və bacarığını əsirgəmir.

Həmin dövrlərdən başlayaraq kompüterləşmə və informasiyalaşdırma problemlərinin tədqiqi və tətbiqinə verdiyi önəm bu gün də İ.İbrahimovun elmi, təşkilati, pedaqoji və ictimai fəaliyyətində istiqamətverici yer tutur. O, sonrakı illərdə (1978-1988) Azərbaycan Neft və Kimya İnstitutunun yenidən rektoru işləyərkən bu sahədə yüksək ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirir. 1981-ci ildə ona Azərbaycan Respublikasının Əməkdar elm xadimi adı verilir.

